BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2009

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ŞƏHƏR BAZARLARI

**M.P.OSMANLI**
***Bakı Dövlət Universiteti***
***meharet.osmanli@rambler.ru***

*Məqalə XX əsrin əvvəllərində Azərbaycanda şəhər bazarları probleminə həsr olunmuşdur.*

*Burada Şimali Azərbaycanın XX əsrin əvvəllərindəki iqtisadiyyatından, həmçinin nəqliyyat şəbəkəsi, ticarət əlaqələri və bütövlükdə infrastukturun inkişafının daxili və xarici ticarətə təsirindən bəhs edilir.*

XX əsrin əvvəllərində Şimali Azərbaycan iqtisadiyyatında, o cümlədən də kənd təsərrüfatında kapitalist təsərrüfatçılığının mövqeləri möhkəmlənmiş, istehsalçı və istehlakçı arasında başlıca əlaqələndirici həlqə olan ticarətin inkişaf miqyası xeyli genişlənmiş, ticarətdə iqtisadiyyatın təşkili mexanizmi daha çox şaxələnmiş və mürəkkəbləşmiş, ticarət dövriyyəsinin ümumi məbləğləri çox yüksək hədlərə çatmışdı.

XX əsrin əvvəllərində iqtisadiyyatın əmtəə vermə qabiliyyətinin xeyli yüksəlməsi, nəqliyyat şəbəkəsinin, rabitənin və bütövlükdə infrastrukturanın xeyli inkişafı həm daxili, həm də xarici ticarətin sürətlə genişlənməsi üçün böyük miqyas açmışdı.

Yüzilliyimizin əvvəllərində Şimali Azərbaycan qəzalarındakı şəhər və kənd bazarlarının bu bölmədə nəzərdən keçirilən vəziyyəti yuxarıda söylənilən fikirləri bir daha təsdiq edir.

1910-cu ilin məlumatlarına görə Nuxa şəhərində 844 ticarət və sənaye müəssisəsi var idisə, 1913-cü ildə onların sayı 962-yə çatmış, illik mal dövriyyəsi isə 3 mln. manatı keçmişdi (1). Nuxa şəhəri birbaşa Rusiyanın mərkəzi bazarı – Moskva ilə ticarət aparırdı (2). XX əsrin əvvəllərində Şuşa şəhəri üzrə də ticarətin dövriyyəsi xeyli artmışdı. Əgər əsrin sonunda Şuşa şəhərində 615 ticarət və sənaye müəssisəsi var idisə, 1902-ci ildə onların sayı 708-ə, 1913-cü ildə isə 800-ə çatmışdı. 1913-cü ildə bu müəssisələrin illik ticarət dövriyyəsi 8400 min manat təşkil etmişdi (2, 381). 1902-ci ilin məlumatlarına görə Şuşa şəhərindəki tacirlərin sayı 1535 nəfərə çatmışdı.

XIX əsrin sonu – XX əsrin əvvəllərində /1897-1914-cü illər/ Gəncədəki ticarət müəssisələrinin sayı 1000-dən 1500-ə (3), onların illik dövriyyəsi isə 6 mln. manatdan 32 mln. manata çatmışdı (4). Əgər ötən yüzilliyin 90-cı illərində burada ticarətlə cəmisi 1500 nəfər məşğul olurdusa, 1914-cü ildə onların sayı 2400 nəfərə çatmışdı (5). 1914-cü ildə Gəncədəki bütün ticarət müəssisələrinin sayının 61 faizini mağazalar, meyxanalar və yeməkxanalar təşkil edir və onlar bütün ticarət müəssisələrinin illik dövriyyəsinin 50 faizindən çoxunu verirdilər.

Elə həmin 1914-cü ildə müxtəlif dərəcəli ticarət şəhadətnamələri almış 1214 nəfərin 73 faizini, peşə vəsiqələri almış 1127 nəfərin isə 64 faizini azərbaycanlılar təşkil edirdilər (6).

Aşağıdakı cədvəldə Gəncə şəhəri üzrə xüsusi ticarət müəssisələrinin tərkibi və ticarət dövriyyəsi üzrə məlumatlar əks olunmuşdur:

**Cədvəl №1**

**Gəncə şəhərinin ticarət dövriyyəsi**

| s/s | Ticarət müəssisələrinin adı | 1897-ci ildə | | 1914-cü ildə | |
|---|---|---|---|---|---|
| | | Ticarət müəssisələr. sayı | Ticarət müəssisələr. ümumi illik dövriyyəsi (rublla) | Ticarət müəssisələr. sayı | Ticarət müəs-sisələr. ümumi illik dövriyyəsi (rublla) |
| 1 | Manufaktura | 136 | 500 000 | 144 | 687 000 |
| 2 | Metal və metal məmulat. | 14 | 13 45 000 | 16 | 142 000 |
| 3 | Mexaniki mallar | 3 | 17 000 | 4 | 97 000 |
| 4 | Qab-qacaq | 6 | 29700 | 9 | 34 000 |
| 5 | Tikinti materialları | 7 | 66000 | 13 | 192000 |
| 6 | Qalantereya | 12 | 97000 | 37 | 215000 |
| 7 | Hazır paltar | 4 | 20300 | 8 | 57000 |
| 8 | Ayaqqabı | 5 | 32000 | 6 | 63000 |
| 9 | Taxıl, çörək və xəmir məmulatları | 13 | 83100 | 17 | 112000 |
| 10 | Baqqaliyyə | 4 | 21000 | 18 | 118000 |
| 11 | Topdansatış çaxır anbarları | 15 | 95800 | 30 | 195000 |
| 12 | Ağ neft | 1 | 12 000 | 3 | 47000 |
| 13 | Tənbəki və tütün məmulatları | 3 | 12700 | 6 | 83000 |
| 14 | Əczəxana və kosmetika | 6 | 24 000 | 7 | 78140 |
| 15 | Dəftərxana malları | 2 | 12500 | 5 | 44000 |
| 16 | Mebel | 1 | 11000 | 2 | 57130 |
| 17 | Yeməkxana, qəlyanal-tıxana, bufet, çayxana, pivəxana və b. | 10 | 12400 | 24 | 87000 |
| | Cəmi | 240 | 1181000 | 349 | 2311270 |

1. Cədvəl aşağıdakı qaynaqlar əsasında tərtib olunmuşdur: SMDTA, f.20, siy.6, iş 622, vər.2; iş 273, vər 3-4; ARMDTA, f. 416, siy. 1, iş, 75, vər. 1-492.

Yuxarıdakı cədvəlin bəzi göstəriciləri, o cümlədən də çaxır anbarları barəsindəki rəqəmlər xeyli az verilməsinə baxmayaraq, o Gəncə ticarətinin bu dövr ərzində təkamülünü bütövlükdə obyektiv əks etdirir. Bu illər ərzində burada ticarət müəssisələrinin sayı 144 faiz, onların illik dövriyyəsi 195 faiz artmışdı.

Əsrimizin əvvəlində Gəncədə birjua ticarəti də meydana çıxmışdı. Bu ticarət növü Bakıya nisbətən / 1887-ci ildə/ Gəncədə gec /1896-cı ildə/ meydana çıxsa da, onun illik dövriyyəsi kifayət qədər sanballı /ildə 950 000- 1000000 rubl/ olmuşdu (7).

Ayrı-ayrı ənənəvi ticarət sahələri də kifayət qədər geniş miqyasa malik idi. Məsələn, 1910-cu ildə şəhərin təkcə 2 qəssabxanasında 5500 baş iri, 55000 başa yaxın xırda buynuzlu mal-qara kəsilib satılmışdı (8). Tədqiq olunan dövrün sonuna

yaxın Gəncədə 17 bazar, 8 zirzəmi və 2 dükan topdansatış ticarəti ilə məşğul olurdu. Bu sahədə spirtli içkilər ticarəti üstünlük təşkil edirdi (9). Bu müəssisələr iəçrisində illik dövriyyəsinə görə Forer qardaşlarının anbarları fərqlənirdi. Onlar təkcə Gəncədə topdansatış ticarətlə məşğul olan 10 anbar və zirzəmiyə malik idilər (10). Forer qardaşları Gəncə dəmiryolu stansiyasında 6 şöbəsi olan iri çaxır satışı zirzəmisi tikdirmişdilər. 35 nəfərin çalışdığı bu zirzəminin 1914-cü ildə illik ticarət dövriyyəsi 1. 856. 659 manata çatırdı (11).

Əsrimizin əvvəllərində də Gəncə xalça ticarəti öz mövqeyini qoruyub saxlayırdı. Hər il möhtəkirlər Gəncə bazarında 23 000 pudadək xalça və xalça məmulatları /hər pudu təxminən 10 manatdan/ satın alırdılar (12).

Gəncə kənardan gətirilən genişçeşidli malların iri satış bazarı olaraq qalırdı. Məsələn, 1910-cu ildə başqa yerlərdən Gəncəyə 3.09 mln. pud çay, 60 min pud kişmiş, 1, 33 mln. pud neft və neft məhsulları, 228 min pud metal və metal məmulatları, 12 min pud bitki yağları, 225 min pud şəkər, 462 min pud duz, 463 min pud parça, 12 min pud tənbəki və s. gətirilmişdi (13).

Bununla yanaşı Gəncədən aparılan malların da çeşidi xeyli geniş, miqdarı xeyli sanballı idi. Əsrin əvvəllərində hər il Gəncədən 200-900 min pud taxıl və taxıl məhsulları, 85-100 min ədəd aşılanmış dəri, 100 min pudadək yun, 700 min pudadək heyvandarlıq məhsulları, 165-200 min pud təzə meyvə və s. aparılırdı (14).

1900-1916-cı illərdə hər il Gəncədən 300-800 min vedrə çaxır, 250 min - 1, 73 mln. dərəcə spirt, 100-250 min pud pambıq, 100-370 min pud biyan kökü və s. ixrac olunurdu (15).

Xarici ölkələr içərisində Gəncənin əsas ticarət tərəf müqabili İran idi. 1903-cü ilin məlumatlarına görə İrandan Gəncəyə 147736 manatlıq mal gətirilmiş, buradan isə İrana 231177 manatlıq mal aparılmışdı (16).

Artıq XIX əsrin sonundan etibarən Gəncə şəhərinin ticarətində müxtəlif kompaniyalar, firmalar və s. bu kimi ticarət istehsalat məssisisələri mühüm rol oynamağa başlamışdı. Bunların içərisində 1900-cü ildə meydana çıxmış «Hümmel qardaşları ticarət evi» 1892-ci ildə kompaniya kimi qeydə alınmış, 1913-cü ildə ticarət evinə çevrilmiş «Forer qardaşları» (1816-cı ildə bu ticarət evi «Cənub şərabçılığı» adlı səhmdar cəmiyyətinə çevrilmişdi) mühüm rol oynayırdılar. 1907-ci ildə Gəncədə «Yelizavetpol», 1909-cu ildə «İ Franko və P.Polonski», 1911-ci ildə «İ.F.Terentyev və Ko - sı», «Kavkaz veritas», «Qələbə», «Aşxatanq», «Əmirxanov qardaşları», «B.H.Ohanezov və oğulları» və «S.S.Təhməzov və Ko-sı» adlı kompaniyalar yaradılmışdı. 1907-1911-ci illərdə meydana çıxmış bu kompaniyalar əsasən çaxır və spirt ticarəti ilə məşğul olurdular. 1911-ci ildə «Pambıq», 1913-cü ildə «Gevorkov qardaşları» və «Avetisov qardaşları və Ko-sı» adlı ticarət evləri fəaliyyətə başlamışdı. Bu sonuncu dörd müəssisə, habelə birinci cahan savaşı ərəfəsində yaradılmış «Ulduz» ticarət-sənaye kompaniyası, habelə 1915-ci ildə fəaliyyətə başlamış «Rəfiyev qardaşları» ticarət evi, «B.Arzumanov və oğulları» adlı ticarət-sənaye kompaniyası, «Yelizavetpol səhmdar kənd təsərrüfatı və sənayesi cəmiyyəti» əsasən pambıq ticarəti sahəsində işləyirdi.

Sənaye pambıqçılığı və bağçılığının inkişafı ilə pambıq, şərab və meyvə məhsullarının başlıca satış mərkəzlərindən birinə çevrilmiş Gəncə şəhərində 1902-ci ildə ticarətlə məşğul olan 1452, 1910-cu ildə 1648, 1913-cü ildə isə 2129 müəssisə var idi (2, 363). 1915-ci ilin məlumatlarına görə bu şəhərdə bölgü rüsumu verməli olan 1443 ticarət və sənaye müəssisəsi var idi ki, bunların da illik dövriyyəsi 18 mln.

manata çatırdı. 1916-cı ildə Gəncə şəhərinin ticarət dövriyyəsi 32 mln. manata çatmış, bu məbləğin də 20 mln. manatı pambıq emalı və satışının, 3 mln. manatı meyvə ticarətinin, 10 mln. manatı isə şərab və üzüm alverinin payına düşürdü (17).

Hələ 1906-cı ildə meydana çıxmış «Biyan kökünün çıxarılması və emalı üzrə Qafqaz səhmdar cəmiyyəti» də iri ticarət müəssisələrindən biri sayıla bilər.

Ümumiyyətlə, Birinci dünya müharibəsi ərəfəsində Gəncənin illik ticarət dövriyyəsinin 60-70 faizi göstərilən kompaniya, ticarət evi və səhmdar cəmiyyətlərinin payına düşürdü (18).

Beləliklə, iqtisadiyyatda kapitalist münasibətlərinin aparıcı hökmran mövqelərə yiyələndiyi dövrdə təklif və tələbatın getdikcə güclənməsi, nəqliyyat infrastrukturunun formalaşması və s. nəticəsində Gəncə Quzey Azərbaycanın iki ən iri ticarət mərkəzindən birinə çevrilmişdi.

Yuxarıda qeyd olunduğu kimi, Zaqafqaziya dəmiryolu Tiflis-Bakı qolunun işə salınmasından sonra əsas yük axını məcrasının dəyişməsi ilə əlaqədar olaraq XIX əsrin sonunda Şamaxı şəhərində ticarət məhdudlaşmağa başlayır (19). Lakin onun miqyası XX əsrin əvvəllərində də kifayət qədər geniş olaraq qalırdı. Əgər əsrin sonuna yaxın Şamaxı şəhərində 722 ticarət və sənaye müəssisəsi var idisə, 1902-ci ildə (dəhşətli zəlzələdən, demək olar ki, dərhal sonra) onların sayı 509-a, 1910-cu ildə isə 520-yə çatırdı. 1912-ci ilin məlumatlarına görə Şamaxı şəhərində bölgü rüsumu verməli olan, illik dövriyyəsi 1.200 min manata çatan 227 ticarət və illik dövriyyəsi 32 min manat olan 2 sənaye müəssisəsi var idi (20). Bunlarla bərabər Şamaxıda, eləcə də başqa şəhər və kəndlərdə bölgü rüsumundan azad olan xeyli xırda tacirlər də var idi ki, onların da illik ticarət dövriyyəsini müəyyənləşdirmək mümkün deyildir.

XX əsrin əvvəllərində Quba şəhəri üzrə ticarətin sürətlə inkişafında belə bir fakt dəlalət edir ki, əgər XIX əsrin sonunda burada cəmisi 286, əsasən xırda olan ticarət müəssisəsi vardısa, 1902-ci ildə onların sayı 315-ə, 1910-cu ildə isə 929-a çatmışdı. 1912-ci ildə Qubada ancaq 1-ci və 2-ci dərəcəli ticarət müəssisələrinin sayı 181-ə bərabər idi. Təkcə sonuncu müəssisələrin illik ticarət dövriyyəsi təxminən 1 mln. manata çatırdı (20).

Qubada istehsal edilmiş məmulatların sorağı çox-çox uzaqlardan gəlirdi. 1901-ci ildə Xaçmaz stansiyası vasitəsi ilə Qubadan 308 min manatlıq 9250 pud (5420 ədəd) xalça və xalça məmulatları aparılmışdı (21). XIX əsrin sonu - XX əsrin əvvəllərində Qərbi Avropa və Amerika xalça firmalarının agentləri bir sıra şəhərlərdə, o cümlədən də Qubada öz firmalarını yaratmışdılar.

Xaçmazdan keçməklə dəmiryolunun fəaliyyətə başlaması yerli tacirlərin bir hissəsi üçün ixrac fəaliyyəti ilə məşğul olmaq imkanını xeyli genişləndirmişdi. Qaynaqların birində deyilir ki, XX əsrin əvvəllərində Qubada «10 iri və bir neçə xırda tacir var ki, birincilərdən 5 nəfəri hər il Konstantinopola (İstanbula – M.O.), demək olar ki, 200 min manatlıq xalça məmulatı göndərirlər. Dəmiryolu açılanadək xalçalar Tiflis sövdəgərləri vasitəsilə göndərilirdi; indi isə Quba tacirləri bunu özləri edirlər» (21, 60). Tədqiq edilən dövrün sonlarında xalça ixracı ticarəti bütövlükdə yerli tacirlərin əlində cəmlənmişdi (22). Əsrin əvvəllərində bu şəhərdə 4-5 ixtisaslaşdırılmış xalça mağazası var idi (23).

Quba ticarətində meyvə ixracı (Cənubi Qafqaz və Rusiya bazarlarında) mühüm yer tuturdu. Əgər ötən əsrin sonlarında Qubadan hər il orta hesabla 120-130 min pud quru meyvə aparılırdısa, 1901-ci ildə təkcə Xaçmaz stansiyasından 600 min pud ancaq alma və armud, 1913-cü ildə isə təxminən bu qədər alma və 16 min pud qoz-

fındıq yola salınmışdı (24).

Lakin etiraf etmək lazımdır ki, dəmiryolunun işə düşməsi ilə Quba şəhərinin eyniadlı qəza ilə ticarət əlaqələri zəifləyir. Əsrin əvvəlinə aid qaynaqlardan birində bildirilir ki, dəmiryolu xəttinin çəkilməsi «Qubanın ticarət əməliyyatlarını yarıbayarı azaltdı, ona görə də dəmiryolu stansiyalarına yaxın kəndlərin sakinləri bütün lazım olanları almaq və öz məhsullarını satmaq üçün Qubaya gəlməkdənsə, dəmiryolu ilə Dərbənd və Bakıya getməyi üstün tuturdular; çünki bu (Qubaya getmək – M.O.) qış yollarının, xüsusən də Quba-Xaçmaz poçt yolunun keçilməz palçığı üzündən çox böyük çətinliklər ilə bağlı idi (25). Digər tərəfdən isə kəndlilərin məhsullarına Qubadansa Bakı, Dərbənd və başqa iri şəhərlərdə daha yaxşı və baha satılırdı (26).

XIX əsrin sonu - XX əsrin əvvəllərində Quba ticarətində nəzərə çarpacaq kəmiyyət və keyfiyyət dəyişiklikləri gedirdi. 1893-cü ildə 236 nəfər tacir olduğu halda 1111 ticarət obyekti qeydə alınmışdı. Sonunculardan 1109 dükan idi. Özü də bu dükanlardan 4-ü şəhərə, 6-sı yerli məscidə, qalanları ayrı-ayrı sahibkarlara məxsus idi (27). Əsrin sonlarına nisbətən ticarət müəssisələrinin sayı, demək olar ki, iki dəfə artmışdı.

1897-ci il sayımının məlumatlarına görə Qubanın ticarət-peşə sahələrində 2004 nəfər məşğul idi: bunlardan 211-i «müxtəlif mallar», 40-ı mal-qara, 10-u taxıl məhsulları, 424-ü digər kənd təsərrüfatı məhsullları, 4-ü tikinti materialları, 133-ü parça və paltar, 7-si gön və xəz, 11-i əntiq mallar, 12-si içkilər ticarəti, 238- i səyyar ticarətlə məşğul idilər (28).

Şəhərin daxili ticarət həyatında topdansatış deyil, pərakəndə və xırda satış ticarəti mühüm yer tuturdu. 1914-cü ildə Qubada iri xalça ixracı ilə iri tacirlərdən Ağababayev, İshalov, Məhidov, Uridov, alma ixracı ilə Əsgərov qardaşları, Bağırov, Hüseynov, Dadaşov və b. məşğul olurdular (22, 215).

XX əsrin əvvəllərində Qubada xeyli ixtisaslaşdırılmış ticarət müəssisəsi var idi. Məsələn, 1908-ci ildə onların sayı 56-ya çatmışdı (5 baqqaliyyə, 7 qalanteriya, 1 göndəri, 30 parça, 3 mis qab, 2 çaxır dükanı və s.) (29, 277-278).

Ticarət müəssisələrinin çoxu şəhərin mərkəzində: Bulvar, Lazarev, Bazar, Orta, Komendant, Karvansara və b. küçələrdə yerləşirdi (30).

Şəhər ticarətinin ən çox cəmləşdiyi yer Bazar meydanı idi. Onun şimalı və cənubundu 2 karvansara yerləşir, şərqdən bu meydanı çoxsaylı ipək və parça, qərbdən isə meyvə dükanları əhatə edirdi.

Ötən əsrin lap sonlarına yaxın Lənkəran Şimali Azərbaycanın ən mühüm ticarət mərkəzlərindən birinə çevrilmişdi. Lənkəran bazarlarında yerli tacirlərlə yanaşı, Cənubi Qafqaz, Rusiya və hətta xarici ölkə tacirlərinə də rast gəlmək olurdu: şəhər daxili və xarici ticarətdə yaxından iştirak edirdi. Lənkəran şəhəri ilk növbədə ətraf kənd təsərrüfatı bölgələrinin əsas satış bazası idi. Kənd təsərrüfatı məhsulları burada təkcə eyni adlı qəzanın kəndlərindən deyil, həmçinin Cənubi Azərbaycandan (əsasən mal-qara, meyvə-tərəvəz, ağartı məhsulları, bal və s.) da gətirilirdi. İranın digər bölgələri və şəhərlərindən Lənkəran bazarına sənətkarlıq və kənd təsərrüfatı məhsulları gətirilirdi. Məsələn, 1913-cü ildə İrandan Lənkərana 60 min manatlıq 22329 pud müxtəlif mal gətirilmişdi (31, 101-102). Bundan əlavə həmin dövrdə Cənubi Azərbaycandan və İranın bir sıra bölgələrindən Lənkəran bazarına satış üçün 241 baş at, 33784 baş iri və 439144 baş xırdabuynuzlu mal-qaranın gətirildiyi də məlumdur (32, 15-90).

XX əsrin əvvəllərində cəmi 208 ticarət müəssisəsi var idi, bunlardan 23-ü

yeməkxana, 11 çörək və taxıl mağazası, 6 xırdavat dükanı, 25 sənətkar dükan-emalatxanası, 8 tikinti materialları mağazası, 2 ərzaq mağazası və s. idi. Lənkəran ticarət müəssisələrinin ümumi dövriyyəsi 442, 6 min manat idi (33). Belə müəssisə sahiblərindən 60 nəfəri 1-ci gildiya tacirləri idilər (34).

Haqqında danışdığımız dövrdə Lənkəran təkcə Azərbaycana deyil, bütün Cənubi Qafqaza və Rusiyaya meşə materialları, kürü və kənd təsəsrrüfatı məhsulları göndərən bir mərkəz kimi məşhur idi. Bakı şəhərinə hər gün Lənkərandan tər tərəvəz yüklənmiş gəmi yola düşürdü. Tərəvəzçilik böyük gəlir gətirdiyindən Lənkəran ətrafındakı tərəvəz becərməyə yararlı torpaqların hər bir desyatinin qiyməti 150-200 manata çatmışdı (31, 120).

Lənkəran bölgənin ən iri düyü ixracı mərkəzi idi. Ötən yüzilliyin sonuna yaxın buradan təkcə Həştərxan vasitəsi ilə Rusiya şəhərlərinə hər il 50-55 min pud düyü göndərilirdi (35, 14).

Lənkəran ətrafı bölgələrdə muzdlu fəhlələrdən istifadə olunmaqla meşə materialları tədarük edilir və başqa bölgələrə göndərilirdi. Əsrimizin əvvəllərində hər il Lənkərandan təxminən 21,1 min pud palıd tir, 120 ədəd çəkic sapı, 33 min ədəd zərbə təkərləri üçün mil, 24 min ədəd bel sapı, 4500 ədəd ağac, qab-qacaq, 1118,4 min pud ağac kömür və s. göndərilirdi (əsasən Rusiya şəhərlərinə) (36).

Lənkəran Rusiya və İran arasında /su və quru yollarla ticarətin mühüm məntəqələrindən biri idi. İran və Rusiya tacirləri Lənkəran anbarlarından intensiv şəkildə istifadə edirdilər. Ötən əsrin sonlarında hər il Lənkəran gömrükxanasından İrana 850-870 min pud rus malı buraxılırdı (37).

Rus-İran tranzit ticarətində Lənkəran limanı böyük rol oynayırdı. Əgər XIX yüzilliyin sonlarında bu limandan ildə 690 min pud yük keçmişdisə, 1913-cü ildə bu rəqəm 1, 2 mln. puda çatmışdı (37). Yerli ticarətçilər və İran tacirləri də həmin dövrlərdə Lənkərandan müvafiq olaraq 1,2 mln və 1,55 mln pud mal göndərmişdilər (37).

Lənkəranın əlverişli coğrafi mövqeyi bəhs olunan dövrdə Lənkəran bölgəsində intensiv yol çəkilişi, körpü salınması (təkcə Qumbaşı körpüsünün tikintisinə 550 manata qədər xərc çəkilmişdi) (38? 97), poçt-rabitə sisteminin xeyli təkmilləşməsi (artıq 1882-1883-cü illərdə Lənkəranı Bakı ilə birləşdirən teleqraf xətti çəkilmişdi) (39, 62-63) və s. ticarətin inkişafını şərtləndirən amillərdən idi. Ticarətin belə sürətlə genişlənməsi Lənkəranın ticarət-kapitalist şəhərinə çevrilməsinə mühüm rol oynayırdı. Obyektiv olaraq Lənkəran Şimali Azərbaycanın cənubunda ən mühüm ticarət mərkəzlərindən biri kimi böyük əhəmiyyətə malik iqtisadi rayona çevrilmişdi.

Ordubad Azərbaycan və Rusiyanın İranla tranzit ticarətinin mühüm məntəqəsi idi. Bu da şəhərin həm daxili, həm də xarici ticarətinin geniş inkişafına əlverişli şərait yaradırdı. Təkcə Ordubadın özünün deyil, həm də ətraf bölgənin ticarət-təsərrüfat həyatının mərkəzi bu şəhərin şərq tipli örtülü bazarı idi. Bu bazar gümbəzləri örtüyü, çarşı adlanan örtülü ticarət sıraları ilə məşhur idi. Çarşının hər iki tərəfində mağazalar, emalatxanalar, kustar müəssisələr, dükanlar, o cümlədən hücrə adlanan xüsusi konstruksiyalı hərəkət edən qapılara malik xırda dükanlar yerləşirdi (40, 100; 119).

Ordubad bazarında İranla ticarətlə bağlı olan tranzit xarakterli sövdələşmələr həyata keçirilirdi. Topdansatış ticarəti üçün nəzərdə tutulmuş mallar bazarın lap mərkəzində yerləşən karvansaralarda saxlanılırdı (41, 89).

Baş çarşıya əsasən ərzaq ticarəti toplanmışdı. Baqqalbazar adlanan yerdə çörəkxanalar, baqqal, əttar, şirniyyat, halvaçı dükanları və ictimai iaşə müəssisələri (kəlləpaçaçı, kababçı, pitixana, aşxana, çayxana və s.) yerləşirdi (41, 89-90).

İkinci baş çarşı isə əsasən mağazalar və sənətkar dükanlarından ibarət idi. Topdansatış anbarları, yerli tacirlərin kontorları da elə burada yerləşirdi.

Lakin ticarət sıralarının satılan məhsulları növünə görə belə bölünməsinə heç də həmişə əməl olunmurdu.

Dəmirçi tənəkəçilər «dəmirçi bazarı» adlandırılan ayrıca sırada cəmləşmişdilər. «Əllaf bazarı» adlanan başqa bir sırada isə un və dən alveri edənlər yerləşirdilər (41, 90).

Ordubad bazarı Araso adlı böyük meydandan başlayırdı. Bu meydanın ən nüfuzlu tacirlərinin ticarət müəssisələri, universal tipli mağazalar, əhalidən barama, yun və dəri alan ticarət-tədarük obyektləri yerləşirdi (42, 12).

Bazarın mərkəzində yerləşən və Mizan-dibi adlanan meydanda 10-12 pudadək yükləri çəkə bilən iri şəhər tərəziləri qoyulmuşdu.

Ordubad bazarına Naxçıvan, Noraşen və Sisyandan, habelə sərhədyanı Cənubi Azərbaycan kəndlərindən (Siyahrud, Ələmdar və s.) mal gətirilmişdi (42, 121).

Bazarın sonunda yerləşən Aşağı Anbar meydanında məşhur qədim hamam da fəaliyyət göstərirdi. Baş çarşının sağ tərəfində əsasən tacirlərin alver etdikləri kiçik Kömür meydanı yerləşirdi.

XX əsrin əvvəllərində Ordubad bazarının illik dövriyyəsi ötən yüzilin sonuna nisbətən 2 dəfə artaraq 700-750 min manata çatırdı (41, 87).

Hər iki əsrin ayırıcında Ordubadda kənd təsərrüfatı məhsulları ticarəti ilə məşğul olan 149, metal və silah ticarəti ilə məşğul olan 16, parça-paltar alveri ilə məşğul olan 3, xırda səyyar alveri ilə məşğul olan 3 nəfər qeydə alınmışdır (43, 106-107).

Həmin dövrdə Ordubadda fəaliyyət göstərən 34 ticarət müəssisəsinin illik təmiz gəliri 11 min manat təşkil etmişdir.

Bu müəssisələrdən iyirmisinin dövriyyə kapitalı 5 min manatadək, dördününkü 20 manatadək və nəhayət, birininki isə 50 min manata bərabər olmuşdu (44, 102).

## ƏDƏBİYYAT


1. Кавказское сельское хозяйство, № 518, 1904.
2. Памятная книга Елизаветпольской губернии за 1914 год. Тифлис: 1914, с. 377-379.
3. SMDTA, f.20, siy.6, iş 626, vər 1-2; f. 537, siy. 33, iş 953, vər 4-7.
4. SMDTA, f. 20, siy. 6, iş 624, vər. 1-2; ARMLTA, f. 384, siy.1., iş 33, vər.17.
5. TİEA, inv. 8709, s. 123.
6. ARMDTA, f. 416, siy. 1, iş 75, vər. 1-492
7. TİEA, inv. 8709, s. 131.
8. Обзор Елизаветпольской губернии за 1910 год. Тифлис: 1912, с. 142.
9. ARMDTA, f. 416, siy.1, iş 75, vər. 1-492.
10. Кавказское хозяйство, 1897, № 194, с. 617.
11. TİEA, inv. 3267 /2/, s. 229.
12. TİEA, inv. 3108, vər. 40; Экономический вестник Азербайджана, 1926, № 5-6, с.46.
13. Обзор Елизаветпольской губернии за 1910 год, с.167-169.
14. ТИЕА, инв. 8709, с. 134.
15. ARMDTA, f.1, siy, 1, iş 533, vər 42, və b.
16. TİEA, inv. 8709, s. 138-139.
17. ARMDTA, f. 384, siy.1, iş.11, vər.24
18. TİEA, inv. 8709, s. 142.
19. SMDTA, f. 20, siy.6, iş 581, vər.1.
20. SMDTA, f. 573, siy. 25, iş 63, vər. 1-84; (hesablamalar müəllifindir).

21. Даниелбеков Г. Ковровый промысел в Кубинском уезде. Кустарная промышленность на Кавказе, вып. 1, Тифлис: 1903, т.IV.
22. Весь Кавказ, от. 2, с. 215
23. КК на 1909 год, с. 277-278.
24. КСХ, 1903, № 504, с. 1360; «Закавказье» qəzeti, с. 249; Труды Кавказского отдела Императорского российского общества садоводтсва. I с., Tiflis: 1898, s. 261, və b.
25. Gürc. MDTA, f. 13, siy.6, iş 150, vər.1.
26. Бакинские Губернские ведомости, 1894, № 32.
27. ARMDTA, f. 45, siy.2, iş, 224, vər. 13; TİEA, inv. 8577, s.101-102.
28. Первая всеобщая перепись населения Российской Империи, т.61. СПБ.: 1904, с. 102-103.
29. Весь Кавказ. КК на 1909 год, с. 277-278.
30. ARMDTA, f. 43, siy 4, iş 2804, vər. 2-58.
31. Очерк сельского и лесного хозяйства Ленкоранского уезда.
32. Шавров Н.Н. Персидские побережье Каспийского моря, его производительность и торговля. Тифлис: 1913.
33. SMDTA, f. 1302, siy. 12, iş 46, vər. 34.
34. Gürc. Resp. MDTA, f. 21, siy 1, iş 46, vər. 13.
35. А.В. фон Гребнер. Торговые дороги Закавказья. СПб: 1896.
36. SMDTA, f. 387, siy. 28, iş.1700, vər. 29
37. Обзор Бакинсокой губернии за 1897 г. Баку: 1899.
38. SMDTA, f. 95, siy.7, iş. 828, vər.8.
39. Обзор Бакинской губернии за 1890 г. Баку: 1891, с. 97.
40. Багиров Р.Г. Возниконовение и развитие телеграфа в дореволюционном Азербайджане. Известия АН Азерб. ССР, серия Экономики, 1968, № 3.
41. TİEA, inv. 8655.
42. Фараджев А.С. Ордубад. Историко-этнографический очерк. Баку: 1970, с. 89.
43. TİEA, inv. 5655.
44. Первая всеобщая перепись населения Российской империи… с. 106-107.
45. Памятная книжка Эриванской губернии за 1907 г. Эриван: 1902, с. 109.

## ГОРОДСКИЕ РЫНКИ АЗЕРБАЙДЖАНА В НАЧАЛЕ XX ВЕКА

**М.П.ОСМАНЛЫ**

### РЕЗЮМЕ

Данная статья посвящена проблеме городских рынков Азербайджана в начале XX века. В статье говорится об экономике Северного Азербайджана в начале XX века, рассмотрены вопросы транспортной сети, торговых связей и, в целом, влияние развития инфраструктуры на внутренней и внешней торговле. А также анализируется городские и сельские рынки, их торговые связи, товарооборот и продаваемые товары.

В начале XX века в Северном Азербайджане общие суммы торгового оборота достигли самого высшего уровня.

# THE CITY MARKETS OF AZERBAIJAN AT THE BEGINNING OF THE XX CENTURY

**M.P.OSMANLI**

## SUMMARY

The article deals with the problem of the city markets of Azerbaijan in the beginning of XX century. The article studies the economy of Northern Azerbaijan at the beginning of XX century, questions of transport network, commercial relations and as a whole influence of infrastructure development on internal and foreign trade of the country.

The city and rural markets their commercial relations, turnover and sale of goods are analyzed in the article as well.

At the beginning of XX century total sum of trade turnover reached its peak in Northern Azerbaijan.